**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.3.236**

**NƏSİROVA-ƏHMƏDOVA FİDAN***

# ZÜLFÜQAR HACIBƏYOVUN HƏYAT VƏ YARADICILIQ YOLU
## (Arxiv materialları əsasında)

*Azərbaycan professional bəstəkarlıq məktəbinin yaradıcısı, pedaqoq, publisist, ictimai xadim, akademik Üzeyir Hacıbəyli nəslinin davamçısı, böyük qardaşı, sirdaşı, Əməkdar incəsənət xadimi, musiqili teatrının yaranmasında bəstəkar Zülfüqar Hacıbəyovun yaradıcılığının misilsiz xidmətləri olmuşdur. Belə ki, bəstəkarın həyat və yaradıcılığı ilə bağlı M.Füzuli adına Azərbaycan Əlyazmalar İnstitutunun arxivində bəstəkarın şəxsi arxivi qorunub saxlanılır. Bu arxivdə araşdırmalar, tədqiqatlar apardığımız zamanı bəstəkar özünün qələmə aldığı tərcümeyi-halı ilə rastlaşdıq. Təqdim olunmuş bəstəkarın tərcümeyi-halı məqalədə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *ictimai xadim, bəstəkar, musiqili teatr, tədqiqat, arxiv, pedaqoq, akademik, publisist, tərcümeyi-hal.*

### Giriş

Azərbaycan professional bəstəkarlıq məktəbinin yaradıcısı, pedaqoq, publisist, ictimai xadim, akademik Üzeyir Hacıbəyli nəslinin davamçısı, böyük qardaşı, sirdaşı, Əməkdar incəsənət xadimi, musiqili teatrının yaranmasında bəstəkar Zülfüqar Hacıbəyovun yaradıcılığının misilsiz xidmətləri olmuşdur. Belə ki, bəstəkarın həyat və yaradıcılığı ilə bağlı M.Füzuli adına Azərbaycan Əlyazmalar İnstitutunun arxivində bəstəkarın şəxsi arxivi qorunub saxlanılır. Bu arxivdə araşdırmalar, tədqiqatlar apardığımız zamanı bəstəkar özünün qələmə aldığı tərcümeyi-halı (Hacıbəyov, Z.Ə. Avtobioqrafiya (Rus dilində, makina çapı, əlyazma) // M.Füzuli adına Əlyazmalar İnstitutu, Fond № 29, arxiv №. 50, qovluq № 3 (25), iş № 27650, s.v. № 43, vərəq – 28.) ilə rastlaşdıq. Bu tərcümeyi-halı olduğu kimi oxuculara təqdim etmək istərdik.

***“Mən 4\17 aprel 1884-cü ildə Şuşa şəhərində anadan olmuşam. Ilk təhsilimi azərbaycan dili üzrə ( o zamanlar tatar dili deyə adlandırırdılar) öz atamdan Əbdul-Hüseyn Hacıbəyovdan almışam. Daha sonra tatar məktəbində, sonra isə Şəhər kollecini bitirmişəm. Usaqlıqdan musiqiyə böyük həvəsim var idi, hələ usaq ikən müəllimlərin mənim musiqi istedadımın olduğunu kəşf etdilər. Ən böyük arzum, musiqi təhsili almaq idi. O dövrün məşhur teart xadimləri A.Haqverdiyev, N.Vəzirov, H.Vəzirov H.A.Sarıdjalinski məndə musiqi istedadı ilə yanaşı, aktyorluq qabiliyyətinin olduğunu bildirib, mənə teatr səhnələrində rollar ifa etməyi təklif edirlər. Lakin atamın 1901-ci ildə qəfil vəfatı, bütün xəyallarımı, planlarımı reallaşdırmağa imkan vermədi və işləməyə məcbur oldum. Mən 5 nəfərdən ibarət ailəmi təmin etmək məcburiyyətində idim. Bir sözlə, 17 yaşında olan gənc, ailəmin qayğıları ilə məşğul olmağa məcbur oldum. 1907-ci ildə kiçik qardaşım Üzeyir Hacıbəyov 1904-cü ildə Qori Seminariyasını bitirdikdən sonra, Bakıda işməyə başlayır və yüküm bir az yüngülləşir. Məhz ondan sonra, mən ev şəraitində ( başqa çür maddi vəsaitim yox idi) musiqi ilə məşğul olmağa davam etdim.***

***1908-ci ildə “Əlli yaşında cavan” musiqili komediyasını bəstələdim, süjetdə bəylərin qayğısız həyat tərzi təsvir olunurdu. Əsər ilk dəfə 1910-cu ildə Tiflis şəhərində Gürcü zadəgan cəmiyyətinin teatrında mənim tərəfimdən səhnələşdirilərək, tərtib olunan ifaçılar truppası ilə səhnəyə qoyulub. Bir neçə dəfə səsləndikdən sonra Bakıda, Naxçıvanda, Nuxada, Culfada, Şuşada və həmçinin bir necə dəfə İranda, Təbrizdə, Rəştdə, Pəhləvidə, Türkiyənin İstanbul və Ankara şəhərlərində səhnəyə qoyulub. Hal-hazırda əsər yenidən işlənilir.***

***1910-cu ildə mən ikinci musiqili komediyanı bəstələdim. “Varlı” musiqili komediyası varlı-kapitalistin həyat yoldaşına olan qəbul edilməz davranışları, ümumiyyətlə qadınlara qarşı olan qeyri-əxlaqi mövqeyini tənqid edirdi. Bu əsər Tiflis şəhərində səhnələndikdən sonra polis idarəsi tərəfindən müsadirə edildi.***

***1912-ci ildə “Evliykən subay” musiqili komediyasını bəstələmişəm, burada bir çox ölkədə mövcud olan çoxarvadlılıq ənənələri təsvir olunub.***

***1915-ci ildə “Aşıq Qərib” operası yazılıb. Bu əsər öz nəcib musiqi dili və süjet xətti ilə sevilirdi, lakin xalq düşmənləri tərəfindən əsər repertuardan çıxarıldı. 1939-cu ildə Türkməninstanın Aşxabadda, Bakıda Musiqili Komediya teatrında və bir çox şəhərlərimizdə səhnəyə qoyulub.***

***1919-cu ildə “Məlikməmməd” nağılı əsasında opera yazmışam. Nağıl-operanın librettosu***

***R.Axundov (sonralar xalq düşməni olduğu üzə çıxan) və onun tərəfdaşları tərəfindən mane olunur, baxmayaraq ki, komissiyanın digər üzvləri –professor və musiqişünaslar bu əsərin pyesin səhnələnməsinə razılıq verdilər. Lakin R.Axundov tərəfindən süjetin müasir tələblərə cavab verməməsi bəhanəsi ilə əsər rədd edilir. Bütün bu neqativ hallar məni özümdən çixarsa da, mən bizim opera səhnəsi üçün bu əsər üzərində axıra kimi işləmək qərarına gəldim. Çünkü, bizim opera repertuarında bu tərzdə operalar yox idi.***

***1920-ci ildə Baş Siyasi Bürosu tərəfindən elan olunan müsabiqəyə qatıldım və Azərbaycan SSR–i üçün Himn bəstələdim, himn müsabiqədə birincilik mükafatına layıq görüldü. 1921-ci ildə bəstələdiyim "Qızıl Əsgər" ilk dəfə Azərbaycan əsgərləri tərəfindən ifa olunub.***

***1922-ci ildə "İnqlab" hərbi-marşı Azərbaycan Birləşmiş Hərbi Məktəb komissiyası tərəfindən rəğbətlə qarşılandı.***

***1923-cü ildə Təşviqat şöbəsi "Qayka" adlı musiqili səhnə yazılmış, sonra isə 1924-cü ildə Təşviqat şöbəsi rəhbərliyində bütün klublara yayılımışdır.***

***1924-cü ildə qardaşım Üzeyir Hacıbəyov ilə birlikdə bir sıra azərbaycan xalq mahnıları və musiqiləri toplayıb nəşr edirdik, məqsəd azərbaycan xalq musiqisinin kütləvi şəkildə yayılmasına dəstək olmaq, xalq musiqisinin xüsusiyyətlərini və rəngarəngliyini ( ahənglərini) tanıtmaq idi. Elə həmin ildə Satirik Təşviqat teatrında qoyulan "Koza Kommunxozu" məişət icmasında "Keçi" adlı pyesə bir neçə musiqi nömrələri bəstələdim.***

***1928-ci ildə mənim tərəfimdən təşkil olunan xor ansamblı üçün "Kənd qızı", "Çoban qızı", "Köylü qadın" ( Kəndli qadın) və s. əsərlər bəstələdim.***

***1930-cu ildə 300 –dən artıq azərbaycan xalq mahnıları, rəqsləri və şikəstə kimi digər folklor nümunələri toplamışam. Bu toplanan material xalq yaradıcılığının cox qiymətli nümunələridir, hal-hazırda yenidən işlənilir.***

***1937-ci ildə böyük oğlum Niyazi ilə birlikdə C.Cabbarlının "Almaz" pyesinin kino filminə musiqi bəstələmişik.***

***Hal-hazırda ASSR İncəsənət işləri İdarəsi ilə müqavilə əsasında Nizami Gəncəvinin "İskəndərnamə" poemasından "Nuşabə" mövzusuna librettosu A.Şaiqə aid olan opera üzərində çalışıram.***

*Bütün bunlardan savayı hələ məktəbli ikən A.Axundovun "Pəri-Cadu" pyesində Qurbanın həyat yoldaşı "Sona xanım", M.F.Axundovun "Xan Sarabskiy" pyesində "Şeyla-xanım" kimi qadın rolları ifa etmişəm.*

***1920-ci ildə ASSR İncəsənət İdarəsi tərəfindən dəvət olunaraq 1921-ci ildə Teatr-Klub mərkəzinin müdiri, həmin ildə əvəzçiliklə "Qızıl Əsgər" sarayında müdir (indiki Azərbaycan Dövlət Filarmoniyası), 1921-ci ildə 10601 nömrəli mandata əsasən ASSR–nin Mərkəzi Fövqalədə Hərbi Komissiyasının Səfərbərlik üzrə üzvü seçildim.***

***1923-cü ildə Siyasi şöbədə İncəsənət kursları üzrə şöbənin rəisi təyin olundum və Azərbaycan Qızıl Ordu nəzdində teart və incəsənət işlərinin aparılmasını yoxlamaq üçün ezamiyyətə yollandım. Eyni zamanda bütün studiya işlərinə rəhbərlik edirdim. 1924-cü ildə Hərbi Büro İdarəsinə dəvət aldım, 1925-ci ildə Baş tərcüməçi kimi ASSR–sı Torpaq İdarəsinə dəvət olundum və eləcə də müvəqqəti olaraq müdir müavinin işlərini aparırdım.***

***1926-cı ildə Baş tərcüməçi kimi ASSR-sı İnzibati İdarəsində, 1927-ci ildə Bakı Regional Prokurorluğuna İkinci Katib kimi dəvət olundum.***

***1928-ci ildə Azərbaycan Radiosunda musiqi rəhbəri vəzifəsini icra etmişəm.***

***1930-cu ildə Konsertlər Birliyi İdarəsində azərbaycan bölməsi üçün Azərbaycan Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və konsultant kimi, mənim rəhbərliyimlə şəhər və rayonlardan Xan Şuşinski, xanəndə və Aşıq Əsəd, Mirzə Karu, İbrahim və s. xanəndə və musiqişilər cəlb olunaraq tədbirlər, konsertlər təşkil etmişəm.***

***1933-cü ildə Azərbaycan Televiziya və Radio yayımının bədii rəhbəri, 1937-ci ildə Azərbaycan Dövlət Estradasının azərbaycan bölməsinin bədii rəhbəri olaraq çalışmışam.***

***1920-ci ildən mən ölkənin ictimai musiqi və ədəbi təşkilat idarələrində, həmçinin tədbirlərində fəal iştirak etmişəm.***

***Kiçik qardaşım (Stalin Mükafatı Laureatı), bəstəkar Üzeyir Hacıbəyov ilə birlikdə opera-operetta truppasını ("Z. və Ü.Hacıbəyovlar qardaşlarının müdiriyyəti" cəmiyyəti) təşkil etdik. Bu truppada H.Sarabski, Bağırov, Hacıbababəyov, Hüseynzadə kimi bizim yetirmələrimiz, artıq çıxışları ilə Moskvada Azərbaycan dekadasında müxtəlif orden və mükafatlara layıq görülmüş***

***aktyorlar iştirak edirdilər. Beləliklə, əlimizdən gəldiyi qədər Bakı və digər şəhərlərdə bizim musiqini təbliğ edərək inkişaf etdirməyə çalışmışam.***

**(QEYD:** onu da qeyd etmək lazımdır ki, truppa yarandığı gündən etibarən təkcə Bakıda deyil, eyni zamanda Azərbaycanın bir çox bölgələrində, o cümlədən də Təbrizdə, Türkiyədə olmuş və bu şəhərlərdə "O olmasın, bu olsun, "Arşın mal alan", "Əlli yaşında cavan", "Evliykən subay" musiqili komediyaları, truppaya daxil olan dövrün görkəmli aktyorlarının iştirakı ilə səhnələşdirilmişdir.)

***1908-ci ildə Tağızadə Heydər Əlinin (Qara Tağı ləqəbli) bacısı Böyük xanım Tağızadə ilə ailə qurdum və bu nigahdan iki övladım - 1911-ci ildə Niyazi – (Əməkdar İncəsənət Xadimi), 1913-cü ildə Çingiz – (Azərbaycan Dövlət Televiziya və Radio Komiteti Baş dirijoru) var. Sovet dövründə tərbiyə alan övladlarım əsl vətənpərvər, mübariz vətəndaş kimi yetişib həm bizim mədəni fondumuza, həm də Sovet xalqlarının mədəni inkişafında müstəsna rolları vardır. Həyat yoldaşım Böyük xanım Azərbaycan Tibb Universitetini bitirib, həkim-terapevt ixtisasına yiyələnmişdi.***

***Düşünürəm ki, Azərbaycan musiqi mədəniyyətində gördüyüm işlərə, xidmətlərimə görə Dövlətimiz tərəfindən mükafatlara, medallara, ordenlərə layiq görülmüşəm. Dövlətimə öz dərin təşəkkürümü bildirirəm.***

***Azərbaycanlı olmağımla fəxr edirəm!***

***17.04. 1941 ci il***
***Bakı şəhəri".***

Bəli, Dövlətimiz daim bəstəkar Zülfüqar Hacıbəyovu yüksək qiymətləndirərək qeyd olunduğu kimi medal və ordenlərlə mükafatlarlandırılmışdır. Belə ki, 1943-ci ildə Azərbaycan Əməkdar İncəsənət Xadimi adına, 1944-cü ildə "Qafqazın müdafiəsi uğrunda", 1945-ci ildə "Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları, 1946-cı ildə incəsənət sahəsində səmərəli əməyinə görə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

Bəstəkarın tərcümeyi-halını nəzərdən keçirdikdə ictimai işlərdə fəaliyyətinin daha səmərəli olduğunu görürük. Xalqımıza, Dövlətimizə daim böyük fəxrlə xidmət etmiş Zülfüqar Hacıbəyovun adı və yaradıcılığı, ümumiyyətlə, Hacıbəyovlar dühası Azərbaycan musiqi mədəniyyəti tarixinin parlaq səhifələrini bəzəyir.

## ƏDƏBİYYAT


1. Hacıbəyov, Z.Ə. Avtobioqrafiya (Rus dilində, makina çapı, əlyazma) // M.Füzuli adına Əlyazmalar İnstitutu, Fond № 29, arxiv №. 50, qovluq № 3 (25), iş № 27650, s.v. № 43, vərəq – 28.
2. Cəbrayılbəyli C.M. Zülfüqar Hacıbəyov/ C.M.Cəbrayılbəyli. – Bakı: İşıq, – 1985. – 104 s.
3. Hacıbəyova, Ü.V. Sənət fədailəri. Hacıbəyovların müsiqi dünyası/ Ü.V.Hacıbəyova. – Bakı: BMA, – 2006. – 255 s.
4. Bayramov, R. Üzeyir bəyin böyük qardaşı // Azərbaycan– 2004, 18 aprel. – s. 4.



****Nəsirova-Əhmədova Fidan İrza qızı***
***Ü.Hacıbəyli ad. BMA-nın "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: orqanologiya və akustika" adlı elmi laboratoriyanın elmi işçisi, Dissertant***
***E-mail: fidan.nasirli@mail.ru***



**Nasirova-Ahmedova Fidan**


## LIFE AND CREATIVITY OF ZULFUGAR HAJIBEYOV
## (According to archival materials)


The work of the founder of the Azerbaijani professional composer's school, teacher, publicist, public figure, successor of the generation of academician Uzeyir Hajibeyli, elder brother, confidant, honored artist, composer Zulfugar Hajibeyov had incomparable merits in the creation of musical

theater. The autobiography and other materials about the life and work of the composer are stored in the personal archive of the composer, in the archive of the Azerbaijan Institute of Manuscripts named after M. Fizuli. While researching this archive, we came across a biography of the composer himself. The data of the composer's autobiography make up the main part of the article.

**Keywords***:* *public figure, composer, musical theater, research, archive, teacher, academician, publicist, biography.*

**Насирова-Ахмедова Фидан**

**ЖИЗНЬ И ТВОРЧЕСТВО ЗУЛФУГАРА ГАДЖИБЕКОВА**
**(По данным архивных материалов)**

Творчество основателя азербайджанской профессиональной композиторской школы, педагога, публициста, общественного деятеля, продолжателя поколения академика Узеира Гаджибейли, старшего брата, доверенного лица, заслуженного деятеля искусств, композитора Зульфугара Гаджибекова имело несравненные заслуги в создании музыкального театра. Автобиография и другие материалы о жизни и творчестве композитора хранятся в личном архиве композитора, в архиве Азербайджанского Института Рукописей имени М.Физули . В ходе наших исследований в этом архиве мы наткнулись на биографию, написанную самим композитором. Данные автобиографии композитора составляют основную часть статьи.

**Ключевые слова:** *общественный деятель, композитор, музыкальный театр, исследование, архив, педагог, академик, публицист, биография.*

*AMEA-nın müxbi üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 22.10.2024**
**Son daxilolma tarixi:12.11.2024**